UOT 479

*P.H.Ağayeva*
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: peri.ava.94@mail.ru*

# XIDIR-ZİNDƏ PİRİ - "BEŞBARMAQ" DAĞI ƏFSANƏSİ

*Azərbaycan xalqının mənəvi dünyasında xüsusi yer tutan, onun ənənəvi mədəniyyətinin bir hissəsini təşkil edən müqəddəs yerlər – pirlər, ocaqlar, məscidlər, xanəgahlar, türbələr, eləcə də ziyarətgahlar Azərbaycan tarixini yaşadır və keçmişlə bu gün arasında körpü rolunu oynayır. İslam dininin qəbulundan sonra Azərbaycanda çoxlu müqəddəs yerlər - ziyarətgahlar yaranmışdır. Ziyarətgahlar azərbaycanlıların dini inancının qorunub saxlanmasında və yaşadılmasında mühüm əhəmiyyət daşıyır və əhali arasında ictimai əlaqələrin sıxlaşdırılmasında mühüm rol oynayır. Ziyarətgahlarda həm İslamdan əvvələ, həm də İslamdan sonrasına aid izlərə rast gəlinir.*

*Açar sözlər:* Azərbaycan, dini ocaqlar, Xıdır Zində piri, inanc

Hibrid söz olan ziyarətgah ərəbcə "ziyarət" və farsca "gah" sözlərinin birləşməsindən yaranaraq Azərbaycan dilinə tərcümədə "ziyarət yeri" mənasını verir, anlamı peyğəmbərlərin, övliyaların, şeyxlərin məzarlarını ziyarət etmək mənasında işlədilir. Bir çoxlarının inanc, and yeri olan ziyarətgahlar əsasən Həzrəti Əli (ə.s), seyid, şeyx və din alimlərinin adı ilə bağlıdır. Bundan başqa İslam yaranmadan öncə yaşayan və İslamın qəbulundan sonra da dini baxımdan hörmət edilən şəxslərin adı ilə bağlı olan pirlərə də rast gəlinir. Əlavə olaraq Azərbaycan inanclarında kiçik məişət əşyalarından tutmuş silah, bulaq, təpə, qaya kimi müxtəlif obyektlər ilahiləşdirilib tarixin müxtəlif dövrlərində insanların ümid yerinə çevrilmişdir. Azərbaycan mifoloji sistemində və inanclarında ağac, dağ, su, bulaq, ilan, öküz, inək, ocaq kultlarının izlərinə də rast gəlinir. Həmçinin, Azərbaycanın islam ziyarətgahlarında əcdad kultu ilə bağlı ziyarət edilən yerlərin xüsusiyyətləri tapılmışdır.

Bildiyimiz kimi, təkallahlılıq prinsipini əsas alan İslam dini tək olan Allahdan başqa obyektə sitayiş etməyi qəti rədd edir. Hətta İslam dinini yaymaq üçün göndərilmiş Məhəmməd Peyğəmbər də (s.a.v) Allahın rəsulu olduğu üçün hörmətli şəxs sayılsa da, nəzəri cəhətdən o da sitayiş obyekti hesab olunmur. Lakin bir çox dinlərdə tək olan Allahdan başqa bir sıra digər müqəddəsləşdirilənlər də vardır. Bu anlamda İslamın ilk dövrlərində deyil, daha çox Məhəmməd Peyğəmbərin vəfatından sonra İslamda bəzi şəxsiyyətlər və bu şəxsiyyətlərlə bağlı olaraq bəzi yerlər müqəddəsləşdirilməyə başlandı. İslamda müqəddəslər anlayışının tarixini araşdıran məşhur macar şərqşünası İ.Qoldsiyer bunu fəth edilmiş ərazilərdəki dinlərin qalıqlarının İslama keçməsi kimi izah edir [6, s. 44].

Mənbələrdən məlum olur ki, orta əsrlər zamanı ziyarətgahlar əhalinin ən çox toplaşdığı sosial-siyasi və ideoloji mərkəzlərdən olmuşdur [5, s. 99]. Əsasən payız fəslində, əkin biçinin başa çatdığı, məhsulun yığılıb qutardığı və asudə vaxtlarında insanlar ya tək-tək, ya ailəlikcə, ya da qrup halında bu müqəddəs yerlərə baş çəkmiş, qurban kəsmiş, nəzir vermiş, ibadət etmişlər

Azərbaycanın hər bir bölgəsində müqəddəs sayılan ziyarətgahlara - ocaq, pir, türbə, came, xanəgahlara rast gəlmək mümkündür. Hər məzhəbdən insanlar bu yerlərə gedir, ziyarət edirlər. "Ziyarətgahlar dini-sosial və ideoloji mərkəzlər olub, dini qayda-qanunlarla yanaşı, xalqın adi hüquq normalarının qorunub saxlanmasında mühüm əhəmiyyət daşıyır" [4, s. 186].

Müqəddəs ocaq və pirlərimiz arasında Xıdır Zində ziyarətgahı da özünəməxsus yer tutur. Xalq arasında "Xıdır-Zində baba" və yaxud "Xıdır-Zində dağı" deyilən beş çılpaq zirvədən ibarət olan bu dağ Xəzər dənizindən 2,5 km aralıda, Zarat kəndindən 3-4 km şimal-şərqdə, Siyəzən-Bakı dəmir yolunun yaxınlığında yerləşir [7, s. 23]. Ən qədim zamanlardan bu müqəddəs yer ulu Tanrıya inam, ümid bəsləyən, ilahi gücünə inanan insanların səcdəgahı kimi tanınır. Onu da qeyd edək ki, əhəmiyyətinə və zəvvarların sayına görə bu ziyarətgah bu bölgədə birinci və əsas ziyarətgah hesab olunur. Dini Qurumlarla İş üzrə Dövlət komitəsinin saytında qeyd edilir ki, bu ziyarətgah Siyəzən rayonu yaxınlığındakı uca bir dağın başında yerləşir: "Bu dağ 124 min peyğəmbərlərimizdən biri - Xızır-Zində babanın qədəmgahıdır" [11]. Belə ki, Xıdır əleyhissalamı yad etmək istəyənlər və dualarında onu vəsilə tutmaq istəyənlər tez-tez bu müqəddəs məkana üz tuturlar. Beşbarmaq dağında olan qədim tikililərin qalıqları, həmçinin mağaralar onu deməyə əsas verir ki, bu inanc əsrlərin sınağından çıxaraq bu günümüzə qədər gəlib çıxmışdır. Deməli, bu ziyarətgah bizdən əvvəlki nəsillərin də sevə-sevə ziyarət etdiyi bir yer olmuş və hətta burada ibadət etmə məqsədilə məscid də inşa etmişlər.

Xıdır kimdir? Neçənci əsrdə yaşayıb? Necə insan olub? Bu kimi suallara aydınlıq gətirək. Xızır və ya Xıdır sözlərinin etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Belə ki, bu kəlmənin ərəbcə kökənli olduğu məlumdur. Türklərdə bu ad Hıdır, Hızır, Hizr kimi istifadə olunur. Ancaq Deniz Karakurt müəllifli "Türk söylence sözlüğü" adlı ensiklopedik mifoloji lüğətində qeyd edilir ki, bu kəlmənin kökü şumerlərə qədər gedib çıxır [9, s. 140]. Müəllif Xızırı ölümsüzlük suyunu içdiyi üçün ölüb yenidən dirilə bilən, çətin anlarda insanların köməyinə çatan, bəzi üstün xüsusiyyətləri olan müqəddəs biri kimi xarakterizə edir. Türklərdə ilin iki hissəyə bölünməsi, xüsusən də ilin birinci hissəsinin Xızr (6 aylıq yay mövsümü) və Qasım (6 aylıq qış mövsümü) adlanan digər hissəsini əhatə edən mərhələlərin hesab edilməsi bu qəbildən sayıla bilər.

1647-ci ildə Azərbaycana gələn türk səyyahı Övliya Çələbi Xıdır Zində pirini ziyarət etdikdən sonra həmin türbədə yatan Xızırın bədəninin təzəliyinin hələ də qorunduğunu qeyd etmişdir [10, s. 105].

Bu dağ həm də Xəzər dənizinin sahilinə yaxın qədim ziyarətgahdır. Belə ki, indiki müsəlman ibadətgahında İslamdan əvvəlki bütpərəstlik adətləri bu günə qədər gəlib çatmışdır. Azərbaycan yazıçısı, tarixçisi Abbasqulu ağa Bakıxanov tariximizin ən mühüm mənbələrindən biri olan məşhur "Gülüstani-İrəm" kitabında etiraf etmişdir ki, "Məcmə-ül-Bəhreyn", yəni Quranda adı keçən iki dənizin qovuşduğu yer Şirvan vilayətindədir. Musa və Xıdır peyğəmbərlərin qayalarının günbəzləri də orada yerləşir [1, s. 42]. Bu barədə fikirlərini bildirən Bakıxanov digər müəlliflərin bununla bağlı elmi mülahizələrinə də işarə edir.

"Zində" sözü "diri" və ya "ölməz" mənasını verir ki, bu da həyat suyundan içdiyi üçün bu gün bizə məlum olan ən qədim əfsanələrdən bəziləri ilə bağlı ölümsüz olduğu aşkar edilən Xıdır peyğəmbərin əlamətidir. Ona görə də Xəzər dənizinin sahilində Siyəzən rayonunda yerləşən Beşbarmaq dağının beş zirvəsini xalq "Xızır-Zində baba" və ya "Xızırında dağı" adlandırırdılar.

Orta əsr bəzi avropa səyyahlarının əsərlərində Beşbarmaq dağı haqqında bir sıra məlumatlara rast gəlmək olar. Məsələn, məşhur alman səyyahı Adam Oleari 1636-cı ildə burada olarkən bu dağın təsvirini verərək qeyd edir ki, farslar Beşbarmaq dağını formasına uyğun olaraq "Barmax" adlandırır. Səyyah həmçinin Beşbarmağın ətrafındakı qala divarlarının və bürclərin də geniş təsvirini verir. O, hətta qalanın İskəndər tərəfindən salındığını, Teymurləng tərəfindən dağıdıldığını qeyd edir [8, s. 519-520].



Şəkil 1. Xıdır-Zində piri – Beşbarmaq dağı

Rəvayətə görə, Xızır peyğəmbər buranı özünün əbədi ibadət yeri seçmişdir. “Qurani-Kərimin “Əl-kəhf” (Mağara) surəsində Xızır peyğəmbərin adı təsadüfi deyil. Belə ki, bu surədə Musa peyğəmbərlə Xızır peyğəmbər arasında münasibət təsvir olunur. Burada deyilir ki, Musa peyğəmbər Allahdan bu biliyə malik olan Xızır peyğəmbəri ona verməsini istədi ki, elm öyrənsin. İki peyğəmbərin görüşü və aralarındakı dialoq çox maraqlıdır. Belə ki, Həzrəti Musa elm öyrənmək üçün Xızır Peyğəmbərin şagirdi olmaq arzusunu bildirir. Xızır əleyhissalam etiraz edərək dedi ki, sən ancaq zahiri elmi bildiyinə görə mənimlə dost olmağa səbrin çatmır, mənim etdiklərimə dözə bilməzsən. Bu danışıqdan sonra peyğəmbər onun əmrlərinə tab gətirmədi və heç bir işinə axıra qədər mane olmadı və yarı yolda ayrılmalı oldular [3, s. 301-302]. Xalq arasında olan inanca görə, Xəzər dənizində, Xıdır-zində Baba dağına baxan qaya-sallar daşa dönmüş qardaşlardır.

Rəvayətə görə, böyük qardaşın adı Xıdır-Zində, ortancıl qardaşının adı Xıdır-İlyas, kiçiyinin adı isə Xıdır-Nəbi idi. Bir gün böyük qardaş kiçiyi çağırır. Şüşəni ona uzadıb dedi ki, susuzluqdan dilim və dodaqlarım quruyub. Xıdır Nəbi su gətirmək üçün Xəzər dənizinə üz tutur. Əllərini suya salır, amma nə qədər çalışsa da, suyu çıxara bilmir. Böyük Qardaş da gözləyir. Kiçik qardaşının su vermədiyini görən Xıdır Zində bu dəfə Xıdır İlyası su gətirməyə göndərir. Daha sonra ortancıl qardaşın da gəlib çıxmadığını görəndə narahat olur. Ardınca sonbeşik və ortancıl qardaşlar böyük qardaşlarının tapşırığını yerinə yetirə bilmədiklərini görüb Allaha yalvarıb, daşa dönmələri üçün dua ediblər [7, s. 25].

Bu gün Xıdır-zində ziyarətgahı müqəddəs ziyarətgah olmaqla yanaşı, xalqımızın dini-mənəvi mədəniyyətinin qiymətli yadigarlarından biridir. Bura Azərbaycanda insanların ən çox ziyarət etdiyi təbii abidə, məbədgahdır. Hər il buraya Azərbaycanın ayrı-ayrı bölgələrindən yüzlərlə insan ziyarətə gəlir. Yerləşdiyi ərazidə isə bu ziyarətgahı ziyarət etməyən insan

deмək olar ki, yoxdur. Bu müqəddəs yerə gələnlərin bir qismi öz dərdlərinə, problemlərinə kömək məqsədilə ziyarət edir, bəziləri isə sırf gəzinti, maraq məqsədilə gəlir. Ziyarətə gələnlərin çoxu özləri ilə heyvan (qoyun-quzu) gətirir və pirin ətəyindəki çökəklikdə onları qurbanlıq kimi kəsib ətrafdakı insanlara paylayırlar.

Pirin ümumi təsvirini versək, ətrafda bir neçə nəzir - ianə qutuları vardır. Ziyarətgahın ərazisi çox böyük sahəni əhatə edir. Pirə gələnlər mütləq qayanın başına çıxır, burada nəzir verirlər.Yeri gəlmişkən qayaya şərq və qərbdən baxarkən o insan əlində olan barmaqları xatırladır və elə bəzi rəvayətlərə görə məhz buna görə bu qayaya Beşbarmaq adı verilib. Dağın başındakı bu piri ziyarət etmək üçün ən azı 5-6 km yol qət etmək lazımdır. Yol nahamar olduğundan bu yolu nəqliyyatla (avtomobil) yarım saat və ya 40 dəqiqəyə getmək olur. Ancaq bəzən hava şəraiti bu yolu qət etməyə heç cür imkan vermir. Həmçinin, qızmar yay aylarında ərazidə ilanların olması riski hərəkəti bir az da məhdudlaşdırır. Zəvvarlar bu ziyarətgaha ilin ən çox yaz və yay fəslində gəlirlər. Hava mülayim olduqda burada adam əlindən tərpənmək olmur. Piri ziyarət edən insanların və qoruğun bələdçisinin sözlərinə görə bu pirə həftənin çərşənbə və şənbə günləri getmək daha məqbul sayılır. Ancaq müasir dövrümüzdə demək olar ki, həftənin bütün günləri bu ziyarətgah insan axınına məruz qalır. Qaya üzərində müxtəlif intervallarda dəmir pilləkənlər düzəldilib. Ancaq bu pilləkənləri çıxmaq olduqca təhlükəlidir, çünki pilləkənlər ensizdir və iti bucaq altındadır. Bu isə qayanın zirvəsinə çıxmağı yaşlı insanlar və qadınlar üçün çətin və təhlükəli hala gətirib çıxarır. Bəzi hallarda ziyarətçilərin sırasında azyaşlı uşaqları da görmək olar. Qeyd etdiyimiz pilləkənləri çıxmaq bu uşaqlar və qocalar üçün nə qədər çətin olsa da, onlar bu əzab-əziyyətlə pirə qalxmağı şərəf hesab edirlər. Qoruğun bələdçisi M.Həsənovun sözlərinə görə, əvvəllər iki qayanın arasındakı hissəyə çıxmaq olduqca riskli imiş. Lakin sonralar onun təşəbbüsü və xeyirxah insanların ianələri hesabına burada insanların rahat şəkildə ibadət etməsi üçün işlər davam etdirilib, 2009-cu ildə isə başa çatdırılıb. Ziyarətgah otağının yanında isə iki qayanın təbii əmələ gətirdiyi boşluqda qadınlar üçün namaz otağı tikilib. Bununla da, insanların ali məqama qalxıb ibadətlərini etməsinə uyğun şərait yaradılıb.

Ziyarətə gələnlərlə etdiyimiz söhbətlərdən məlum olur ki, bu insanların Xıdır-Zində baba pirinə böyük inamları var və onların bir çox arzu, niyyətlərinin həyata keçməsində bu ziyarətlərinin mühüm əhəmiyyəti var. Onu da bildirək ki, ziyarətgaha gələnlərin əksəriyyəti niyyətləri və arzuları həyata keçənlərdir. Hansı ki, niyyətləri həyata keçdikdən sonra bu piri yenidən ziyarətə gələnlərdir. Belə ki, insanlar, arzular, istəklər, niyyətlər fərqli olsa da, nəticədə Xıdır Zində ziyarətgahı onları özündə birləşdirir. Kəsilən qurbanlardan bir-birlərinə "pay" verilməsi insanların bir-birlərinə "ziyarətin qəbul olsun" deməsi, edilən ibadətlər bu birliyin əsasını təşkil edir.

Bu müqəddəs məkanın Məhərrəmlik ayında ziyarətçiləri çox olur. Qeyd edək ki, bu ziyarətgaha təkcə Azərbaycanın daxilindən yox, xaricindən də gələn zəvvarlar olur. Bu da Xıdır Zində pirinə olan inamın, oranın insanların əsas pənah yeri, ümid yeri olduğunu bir daha göstərir.

Xıdır Zində Baba Pirini ziyarətə gedənlərin bəziləri də orada hansısa möcüzə tapacaqlarına inanırlar. Çünki uzun müddət o dağlarda Diri Baba kimi tanınan Xıdır Zindənin hələ də sağ olduğunu düşünənlər var.

Bu ziyarətgahın müqəddəsliyinə, məhz bu ziyarətgahı ziyarət etməklə diləyinin qəbul olmasına ürəkdən inanan ziyarətçilərdən biri də Xaçmaz rayonu Çinartala kənd sakini Hacıyeva Gülarə Tağı qızının dediklərini də qeyd edə bilərik: "12 ildir ana olmaq qismət olmurdu. Ətrafımda hər kəs Xıdır Zində ziyarətgahına inanır və tezliklə bu müqəddəs ocağı ziyarət etməyimi məsləhət edirdilər. Nəhayət, bu ilin (2021-ci il, iyul) yayında ailəmlə

birlikdə bu ziyarətgaha gəldim və həqiqətən möcüzə yaşadım. Artıq hamiləyəm, ana olmağa hazırlaşıram. Bu ziyarətgaha gəlmək kifayət etməz, düşünürəm ki əsas inanmaqdır".

Deməli, Xıdır-Zində müqəddəs məkan olmaqla yanaşı, insanların pənah gətirdiyi, son ümid yeri kimi baxdıqları ocaqdır.

## *Nəticə*

Maddi-mədəniyyət abidələri, pirlər müəyyən bir coğrafi ərazidə xalqın formalaşmasını, dini inanclarını təsdiq edən ən əsas göstəricilərdir. Bir çox azərbaycanlıların ümid, pənah yeri olan Xıdır Zində ziyarətgahı bu gün də davamlı olaraq ziyarət edilən ziyarətgahlar sırasındadır. Bu ziyarətgah Azərbaycanın dini, tarixi abidəsi olmaqla bərabər insanların qəlbində xüsusi yer qazanıb. Dinindən, etnik mənsubiyyətindən, kimliyindən asılı olmayaraq hər il bu pirə yüzlərlə yerli və əcnəbi zəvvarlar, turistlər gəlir. Qəlbində Tanrıya diləyi, arzusu olanlar bu müqəddəs yerlərə gələrək heç kəsə deyə bilmədikləri arzu, istəklərini dilə gətirirlər. Araşdırmamız onu göstərir ki, müasir dövrümüzdə də bu ziyarətgahın əhəmiyyəti nəinki azalır, hətta getdikcə artır. Həmçinin bu kimi inanc yerləri yerləşdiyi şəhərin sosial-ictimai və ideoloji həyatında mühüm rol oynayır. Əhali tərəfindən sıx şəkildə ziyarət edilən bu müqəddəs yerlərin elmi xarakteristkasını vermək, həqiqi tarixini açıb göstərməyin böyük əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT

1. Bakıxanov A. Gülüstani-İrəm. Xatun-plyus, Bakı 2010, 153 s.
2. Hüseynova S.A. "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruğu ərazisində aparılan arxeoloji qazıntıların hesabatı. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitunun Elmi Arxivi, Bakı 2020, 49 s, H-961.
3. Qurani-Kərim. Nurlar, Bakı 2021, 604 s.
4. Məmmədova İ.G. Təbriz şəhərinin maddi mədəniyyəti. Bakı, 2016, 500 s.
5. Səfərli H.Y. Naxçıvanın məscid və ziyarətgahları. Naxçıvan, Əcəmi, 2018, 216 s.
6. Гольдциэр И. Культ святых в исламе. Москва, 1938, 180 s.
7. Кулиева Р. Культ камня в Азербайджане: археолого-этнографическое исследование. Баку: Элм, 2007, 157 с.
8. Олеари Адамь. Подробное описаные путеществыя Голштинского посольства Московыю и Персыю в 1633, 1636 и 1639 годах. Москва, 1870, 1170 с.
9. Karakurt Deniz Türk söylence sözlüğü. Türkiye, 2011, 380 s.
10. Rıhtım Mehmet Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Qafqaz Universiteti Qafqaz Araşdırmalar İnstitutu Nəşri. Bakı 2012, 292 s.
11. https://scwra.gov.az/

УДК 479

*П.Х.Агаева*
*Институт Археологии, Этнографии и Антропологии НАНА*

ХИДИР ЗИНДА ПИРИ- ЛЕГЕНДА О ГОРЕ "БЕШБАРМАК"
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, религиозные центры, пир Хыдир Зинде, вера

Памятники материальной культуры, святилища (пиры) являются главными свидетельствами формирования народа, а также их религиозных представлений. Почитаемое среди азербайджанцев святилище Хыдыр Зинде, и на сегодняшний день является часто посещаемым местом поломничества. Наряду с тем, что святилище является религиозно-историческим памятником, оно имеет особую духовную ценность для людей. Независимо от религиозной, этнической принадлежности ежегодно святилище-пир посещают сотни местных и иностранных поломников, туристов. Люди с различными желаниями и надеждами в душе, придя в такие святыни молятся, обращаются с просьбами к Богу. Исследование показывает, что и в современный период значение данного святилища не только не уменьшилось, а наоборот растет. Кроме того, такие святыни играют важную роль в социально-общественной и идеологической жизни того города, где они находятся. Дать научную характеристику этих, часто посещаемых людьми святынь – пиров, осветить реальную их историю имеет важное значение.

UDC 479

*P.H.Aghayeva*
*Institute of Archaeology, Ethnography and Antropology of ANAS*

KHIDIR-ZINDA BRIDGE - THE LEGEND OF "BESHBARMAG" MOUNTAIN
*SUMMARY*

*Key words:* Azerbaijan, religious centers, Khidir Zinda pir (sacred place), belief

Material and cultural monuments, pirs (sacred places, shrine) are the most main indicators of the formation of the people and their religious beliefs in a certain geographical area. The Khidir Zinde pir (shrine) is among the shrines that are continuously visited today. This shrine is a religious and historical monument of Azerbaijan and has won a special place in people's hearts. Hundreds of native and foreign pilgrims and tourists come to this place every year, regardless of their religion, ethnicity or identity. Those who have a desire for God in their hearts come to these holy places and express their wishes and desires that they cannot tell anyone. Our research shows that the importance of this shrine is not only decreasing, but even increasing in our modern times. Also, such shrines play an important role in the social and ideological life of the area where they are located. It is a great importance to give the scientific characteristics of these holy places, which are frequently visited by the population, and to reveal their true history.

***Daxil oldu: 09.02.2023-cü il***